# MƏMMƏDOV ƏLİ HÜSEYN OĞLU



Məmmədov Əli Hüseyn oğlu 11 avqust 1955-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmışdır. Orta təhsilini Bakı şəhəri 255 saylı orta məktəbdə almışdır. Sonra Bakı Poliqrafıya Məktəbinə daxil olmuş və çapçı ixtisasına yiyələnmişdir. Bir müddət mətbəədə işləmişdir. 1975-ci ildə ordu sıralarına çağırılır. Hərbi xidmətini Macarıstanda keçir. 1978-ci ildə daxili işlər orqanlarında sıravi polis nəfəri kimi işə başlayır. 1982-ci ildə Polis Akademiyasına daxil olur. 1984-cü ildə təhsilini müvəffəqiyyətlə başa vurub, Bakının Binəqədi rayonunda sahə müvəkkili vəzifəsinə təyin edilir. 1987-ci ildə nümunəvi polis işçisi kimi onu Moskva Polis Akademiyasına ixtisasartırma kursuna göndərirlər. Sonra Binəqədi Rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsində polis kapitanı rütbəsində baş əməliyyat müvəkkili vəzifəsinəcən yüksəlir. 1992-ci ilin əvvəllərindən o, mütəmadi olaraq polis əməkdaşları ilə birlikdə cəbhə bölgələrinə göndərilir. 1992-ci il sentyabrın 24-də Əli yenidən döyüş bölgəsinə - Laçın rayonuna ezam olunur. Ermənilərin ələ keçirdiyi mühüm strateji əhəmiyyətə malik olan Qızartı yüksəkliyini almaq üçün kəşfiyyat planı hazırlanırdı. Əli də bu kəşfıyyat qrupuna daxil edilmişdi. Gecə yüksəklik düşməndən azad edilir, lakin oktyabrın 1-də sübh tezdən sayca qat-qat üstün olan düşmən əks-hücuma keçir. Əli qeyri-bərabər döyüşdə böyük şücaət göstərərək, yaralıların döyüş meydanından çıxarılmasına şərait yaradır. Son anadək mərdliklə vuruşan polis kapitanı başından aldığı ağır yaradan həlak olur. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı həyatda yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı fərmanı ilə polis kapitanı Məmmədov Əli Hüseyn oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakının Rəsulzadə qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır.